Azərbaycan Dövlət Pedaqoji Universiteti Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri №1, 2019, **s. 31-36**
Азербайджанский Государственный Педагогический Университет Актуальные проблемы музыкальной науки, культуры и образования №1, 2019, **с. 31-36**
Azerbaijan State Pedagogical University Actual problems of the science, culture and education of music №1, 2019, **pp. 31-36**

UOT 78:371, 321

Maralxanım Tofiq qızı Əliyeva
baş müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: m.aliyeva@gmail.com

Ü.HACIBƏYLİNİN VƏ M.MAQOMAYEVİN VOKAL-XOR YARADICILIĞINDA VƏTƏNPƏRVƏRLİK MÖVZUSU

Açar sözlər: *xor, mahnı, bəstəkar, vətənpərvərlik, kantata*

Ü.Hacıbəyli və M.Maqomayev, hərə özünəməxsus üslubda öz əsərlərində vətənpərvərlik ideyasını əks etdirməyə müvəffəq olmuşlar. Daha sonralar bütün Azərbaycan bəstəkarları onların yolunu davam etdirərək, bu ideyanı məhz iki səpkidə – qəhrəmani və lirik üslubda, bilavasitə və dolayısı şəkildə öz əsərlərində təcəssüm etmişlər.

М.Т.Алиева

ТЕМА ПАТРИОТИЗМА В ВОКАЛЬНО-ХОРОВОМ ТВОРЧЕСТВЕ У.ГАДЖИБЕЙЛИ И М.МАГОМАЕВА

Ключевые слова: *хор, песня, композитор, патриотизм, кантата*

У.Гаджибейли и М.Магомаев, каждый по-своему сумели отразить идею патриотизма в своих сочинениях. Впоследствии все азербайджанские композиторы, пойдя их путем, воплощали эту идею двумя способами – непосредственно и опосредованно, героически и лирически.

M.T.Aliyeva

THE THEME OF PATRIOTISM IN THE VOCAL AND CHORAL WORKS OF U.HAJIBEYLI AND M.MAGOMAYEV

Key words: *chorus, song, composer, patriotism, cantata*

U.Hajibeyli and M.Magomayev, each in their own way were able to reflect the idea of patriotism in their writings. Subsequently, all Azerbaijani composers, following their path, embodied this idea in two ways, directly and

indirectly, heroically and lyrically.

Xor sənəti, mahnı – musiqi mədəniyyətinin ən qədim və zəngin sahələrindən biridir. Mahnıların xor ifası bədii fəaliyyətin ən geniş və demokratik forması olaraq insanlyarın mənəvi aləmlərini, düşüncə və hisslərini, arzu və istəklərini, dünyagörüşlərini əks etdirir. Ölkəmizin musiqi mədəniyyətinin inkişafında, xalqımızın vətənpərvər hisslərinin tərbiyəsində və bədii zövqünün formalaşmasında vokal-xor sənətinin, sözsüz ki, böyük təsiri var.

Azərbaycan bəstəkarlarının yaradıcılığında xor musiqisi mühüm yer tutur və onun böyük bir hissəsi qəhrəmani-vətənpərvərlik mövzusu ilə bağlıdır. Xor musiqisinə ümumiyyətlə vətəndaşlıq mövzuları səciyyəvidir. Burada vətənə sadiqlik, sevgi, ədalətsizliyə qarşı mübarizə, epik və nəhəng ideyalar öz əksini tapır. «Xor mədəniyyəti – bəstəkar yaradıcılığının elə sahəsidir ki, burada bədii tərbiyə funksiyaları ictimai-musiqi funksiyaları ilə uyğunlaşır». (2, 30).

Hər xalq öz tarixinin gözəl səhifələri ilə, bəşər mədəniyyəti xəzinəsinə bəxş etdiyi incilər və böyük şəxsiyyətlərlə təbii olaraq fəxr edir. Azərbaycan xalqının belə oğulları sırasında böyük bəstəkar və mütəfəkkir Üzeir Hacıbəyli və onun dostu və silahdaşı Müslüm Maqomayev xüsusi yer tuturlar. Bu iki böyük şəxsiyyət Azərbaycanın musiqi mədəniyyətində hər bir şeyin ilkini yaratmışlar.

Ü.Hacıbəyli cəmiyyətdə insan təfəkkürünün yeniləşməsini, yeni şəxsiyyətin yaranmasını, onun ümumavropa klassik mədəniyyətinə yaxınlaşmasını məhz xor mədəniyyətində görürdü. O,1926-cı ildə ilk xor kollektivini yaradaraq, həm də onun repertuarı üzərində işləyir və demək olar ki, Azərbaycanda ilk olaraq xor musiqi janrlarını mənimsəyir.

Xor mədəniyyətinin inkişafının nəinki musiqidə, həm də ictimaiyyət üçün lazımi və vacib iş olmasını M.Maqomayev də dərk edərək, 1905-1906-cı illərdə Lənkaran şəhərində müəllim işləyərkən öz tələbələrindən və həvəskar musiqiçilərdən ibarət xor təşkil etmişdir.

Tarixən birsəsli olan milli musiqimizə Ü.Hacıbəyli və M. Maqomayev Azərbaycanda ilk dəfə olaraq çoxsəsliliyi, mürəkkəb fakturanı daxil etdilər. Bu iki nəhəng sənətkarın yaradıcılığı əsasən 1920-50-ci illərə, yəni Azərbaycan tarixinin mürəkkəb dövrünə təsadüf etmişdir. Onlar zamnın tələblərini dərk edərək, qəhrəmani-vətənpərvər mövzusunda hətta bu gün də aktual səslənən bir çox ölməz əsərlərini bəstələyib gələcək nəsillər üçün qoymuşlar.

Dahi Azərbaycan bəstəkarı Ü.Hacıbəylinin yaradıcılığında mahnı və xor əsərləri mühüm yer tutur. Qeyd etməliyik ki, Ü.Hacıbəylinin yaradıcılığında bu iki sahə arasında qarşılıqlı əlaqələr özünü biruzə berir. Bəstəkar instrumental müşayiətli xor əsərləri yaratmaqla yanaşı, mahnıların əksəriyyətində də xorun imkanlarından geniş istifadə etmişdir.

Ü.Hacıbəylinin yaradıcılığında vətənpərvərlik mövzusunda əsərlər lirik mahnıları ilə müqayisədə çoxluq təşkil edir. Bunların sırasında «Milli marş»,

«Azərbaycan marşı», «Çırpınırdı Qara dəniz», «Süvari», «Çağırış», «Ananın oğluna nəsihəti», «Döyüşçülər marşı», «Şəfqət bacısı», «Vətən ordusu», «Yaxşı yol», «Cəbhəyə», «Zəfər himnu», «Əsgər marşı», «Səni gözləyir», «Vətən və cəbhə» kantatası və bəstəkarın bu mövzuda şah əsəri olan "Koroğlu" operasından «Çənlibel» xoru. Bu əsərlər əsasən Azərbaycanda baş verən müəyyən ictimai-siyasi hadisələrlə bağlıtarixi dövrlərdə yaranmışdır.

1918-20 - cı illərdə Azərbaycan Demokratik Respublikası yaranmış dz müstəqil olaraq 23 ay yaşamışdır. Məhz bu dövrdə Ü.Hacıbəylinin yaradıcılığında hərbi-vətənpərvərlik mövzusunda marş və himn nümunələri ortaya çıxmışdır: «Milli marş», «Azərbaycan», «Çırpınırdı Qara dəniz» buna gözəl misaldır.

Bu illərdə Ü.Hacıbəylinin fəaliyyəti xüsusilə diqqəti cəlb edir. O, həm tanınmış publisist, həm də bəstəkar kimi fəaliyyət göstərirdi. Azərbaycan Demokratik Respublikasının rəsmi mətbuat orqanı olan «Azərbaycan» qəzetinin redaktoru kimi ölkənin ictimai-siyasi həyatında iştirak edirdi. Eyni zamanda bəstələdiyi əsərlərlə xalqı ruhlandırır, millətini, vətənini tərənnüm edirdi. Beləliklə, Cumhuriyyət dövründə Azərbaycan musiqisi yeni janrlarla – müasir məzmunlu, vətənpərvərlik ruhlu mahnı, himn və marşlarla zənginləşir.

1920-30-cu illərdə Ü.Hacıbəylinin yaradıcılığının yeni bir mərhələsi başlayır. Həmin dövr Azərbaycanda sovet hakimiyyəti qurulur və ölkənin tarixininnn yeni bir səhifəsi açılır. Bu dövr mədəniyyət xadimləri, o cümlədən də bəstəkarlar və musiqi ifaçıları qarşısında yeni vəzifələr irəli irəli sürülür. Həmin dövrdə bəstəkarlar Azərbaycan üçün yeni olan musiqi janrlarını mənimsəyir, yaradıcılıq axtarışları aparırlar. Onların yaratdığı əsərlərdə yeni mövzu dairəsi, yeni janrlar, yeni ifaçılıq formaları meydana gəlir. Həmin illərdə xor kollektivinin yaradılması uğrunda gərgin çalışan Ü.Hacıbəylinin səyi öz bəhrəsini verdi.

1920-ci illərin sonu və 1930-cu illərin əvvələrində Azərbaycan sovet kütləvi mahnı janrının ilk nümunələri yarandı. Belə mahnılara tələbatı dərk edən Ü.Hacıbəyli tez zamanda məhşurlaşmış «Komsomolçu qız», «Süvari», «Əsgər marşı» və s. əsərlərini bəstələdi.Bu dövrdə yaranan mahnıların çoxu əsasən marş janrında, vətənpərvərlik xarakterdə yazılmışdır.

1930-cu ildə Azərbaycanda sovet hakimiyyətinin qurulmasının 10 illiyi münasibətilə bəstələnmiş «Himn»-i də qeyd etmək lazımdır. Əsərin bədii mətninin müəllifi də bəstəkarın özüdür. Orkestr və xor üçün yazılmış bu əsər üç hissədən ibarət olduğuna görə kantata janrına yaxındır, hətta hərdən onu helə kantata adlandırırlar.

1937-ci ildə Ü.Hacıbəyli «Koroğlu» operasını bitirir. Bu opera Azərbaycan musiqi tarixində cox böyük və əlamətdar bir hadisə oldu. Operanın ən yadda qalan səhnələrindən biri «Çənlibel» xorudur. Operada xor daim xalq dramının fəal iştirakçısı kimi çıxış edir. Qəhrəmanlıq mübarizəsinə köklənmiş xalqın səciyyəvi intonasiyası məhz bu xorda öz ifadəsini tapmışdır. Xalq kütlələrinin oyanışı zamanında onun effektli səciyyəsi olan bu döyüşkən xor həm də opera qəhrəmanı

ilə xalqın birliyini nümayiş etdirir. «Çənlibel» xoru bütöv bir vokal-simfonik poemadır, milli və beynəlmiləl başlanğıcların qarşılıqlı təsirinin parlaq örnəyidir.

Ü.Hacıbəylinin xor yaradıcılığında vətənpərvərlik mövzusunun yeni mərhələsi 1941-45-ci illərə, yəni İkinci Dünya müharibəsi illərinə təsadüf edir. Vətənpərvərlik ideyaları musiqi sənətinin əsas mövzusunu təşkil etməyə başladı. Qeyd etməliyik ki, bu illər mübarizəyə çağırışı, qələbəyə inamı əks etdirən əsərlərin gür inkişaf etdiyi dövr olmuşdur.

Ü.Hacıbəylinin müharibə illərində bəstələdiyi xorlar və mahnılar bir mövzu – qəhrəmani-vətənpərvərlik mövzusu ətrafında birləşsə də, janr baxımından onlar rəngarəngdir. Ü.Hacıbəyli bu dövrə aid olan «Şəfqət bacısı» və «Ananın oğluna nəsihəti» mahnılarında Azərbaycan qadınının obrazını yaratmışdır. Bu dövrdə müharibə mövzusuna cavab verən ən geniş yayılmış janr marş idi. Onlar insanların vətənpərvərlik hisslərinin, mübarizə əzminin yüksəlməsində mühüm əhəmiyyətə malik idi. Bunlar solistlər və xorun ifası üçün nəzərdə tutulmuşdur ki, bu da marş janrının tələblərindən irəli gələn əsas cəhətlərdən biridir.

Ü.Hacıbəylinin Səməd Vurğun sözlərinə yazdığı «Vətən ordusu» və Surə Əliyevanın sözlərinə bəstələnmiş «Döyüşçülər marşı» coşqun ruhlu, çağırış xarakterli, döyüş şüarını xatırladan yürüş marşıdır. Ü.Hacıbəylinin müharibə dövründə mahnı yaradıcılığının ən gözəl nümunəsi «Yaxşı yol» mahnısıdır. Mahnı Süleyman Rüstəmin sözlərinə yazılmışdır. Burada əsgərlərin cəbhəyə yola salınması təsvir olunur. Mahnıda vətənpərvərlik mövzusu lirik planda təcəssüm edilmişdir, ayrılığın kədəri və eyni zamanda yenidən görüşməyə möhkəm inam ifadə edilmişdir.

Müharibə dövründə yaranmış mahnı və xorlarda, həmçinin, vətən məhəbbəti, onun möhtəşəmliyi, gözəlliyi tərənnüm olunurdu. Bunlar himn xarakterli olub, təntənəli əhval-ruhiyəyə malik idi. Ü.Hacıbəylinin xor üçün S.Vurğunun sözlərinə bəstələdiyi «Ey Vətən» və «Zəfər himni» bu qəbildən olan əsərlərdir.

Böyük Vətən müharibəsində insanların qəhrəmanlığını əks etdirən «Vətən və cəbhə» kantatası 1942-ci ildə yazılmışdır. Solist, xor və simfonik orkestr üçün nəzərdə tutulmuş bu kantata müharibə illərində Ü.Hacıbəylinin yaratdığı ən böyük əsərdir. Kantatanın mətninin müəllifi də bəstəkar özü idi. Ümumiyyətlə, bu müharibə illərində yaranmış ən parlaq qəhrəmani-vətənpərvərlik mövzuda olan əsərlərdən biridir. Ü.Hacıbəylinin «Vətən və cəbhə» kantatasının ilk ifası musiqili səhnə tamaşası kimi 1943-cü ildə təqdim olunmuşdu.

Azərbaycanın digər böyük bəstəkarı və klassik musiqinin ölkəmizdə ilk nümunələrinin yaradıcılarından biri Müslüm Maqomayev olmuşdur. O da, Ü.Hacıbəyli kimi, fəaliyyətə inqlabdan əvvəl başlamış və öz əsərlərininn əsas hissəsini sovet dövründə yaratmış, daim yeni, milli mədəniyyət qurucularının ön cərgəsində olmuşdur. Bir bəstəkər kimi M.Maqomayev Azərbaycan professional musiqisinin bir çox sahələrinin inkişafında misilsiz rol oynamışdır. Bu hər şeydən əvvəl opera, simfonik musiqi, kütləvi mahnı, kino və dram teatr musiqisidir.

Qeyd etməl lazımdır ki, Ü.Hacıbəylidən fərqli olaraq, M.Maqomayevin yaradıcılığında xor musiqisi, xüsusən də qəhrəmani-vəətənpərvər mövzusunda əsərlər bir o qədər də geniş yer tutmur, çünki o, bütün qüvvəsini Opera teatrına rəhbərlik və dirijorluq fəaliyyətlərinə sərf etmişdi. Bundan əlavə o, 1937-ci ildə vəfat etmişdir, buna görə də əsasən Böyük Vətən müharibəsi dövründə çiçəklənən hərbi-vətənpərvərlik mövzulu əsərlər onun yaradıcılığında, sözsüz ki, yer ala bilməzdi. Lakin bütün bunlara baxmayaraq, vətənə sebgi, doğma təbiətin tərənnümü M.Maqomayevin də mahnı və opera xorlarında öz əksini tapmışdır.

M.Maqomayev Azərbaycan kütləvi mahnılarının ilk müəlliflərindən biridir. Səciyyəvidir ki, bəstəkarın bütün yaratdığı mahnılar sovet dövrünə aiddir və o dövrün mövzu dairəsi ilə bağlıdır. Onların bir çoxu görkəmli şairimiz M.S. Ordubadinin seirlərinə bəstələnmişdir. M.Maqomayevin mahnıları – azərbaycan xalq, rus ingilabi və sovet kütləvi mahnılarının cəhətlərini özündə birləşdirmişdir. Bu əsərlərin əsas cəhəti – dərin lirikadır, lakin bu məhəbbət lirikası deyil. Burada yaradıcı əməyin işıqlı sevinci və ruh yüksəkliyi tərənnüm edilir. Bəstəkarın yaratdığı "Mazut ordusu", "Neft", "Bizim kənd", "Aprel", "Zərbəçi yoldaşım","Yarış", mahnıları bu qəbildən olan mahnılardır.

Bir sıra mahnılarında M. Maqomayev ölkəmizin təbiətini, vətənin geniş çöllərini tərənnüm edir. Belə mahnıların sırasına "Yaz", "May", "Tarla" və s. aiddir. Bunların da mövzusunu biz vətənpərvərlik kimi müəyyən edə bilərik. Lakin, Ü.Hacıbəylidən fərqli olaraq M.Maqomayev vətənə sevgini burada himn, marş janrları vasitəsilə deyil, lirik intonasiyalar vasitəsilə təcəssüm edir.

1934-cü ildə "Nərgiz" operasının yaradılması Azərbaycanda milli musiqi mədəniyyətinin inkişafında mühüm mərhələ olmuşdur. Bu opera yeni üslubda, Avropa klassik operaları səpkisində yazılmış ilk Azərbaycan operasıdır. Bəstəkar bu əsərində muğam operası çərçivəsindən cəsarətlə kənara çıxmış və Azərbaycan opera sənətinin gözəl nümunələrindən birini yaratmışdır. Xalq səhnələri operada böyük yer tutur. Azərbaycan operası üçün çoxsaylı xor epizodlarının yaranması xüsusilə əhəmiyyətli idi, çünki onların vasitəsilə bəstəkar çoxşaxəli xalq obrazlarının (şən, qəzəbli, iztirab çəkən, mübarizə aparan vəqələbə çalan) açıqlanması üçün imkan əldə etmişdir.

Xalqın xarakteristikası operada əsasən mahnı və rəqs janrlarının vasitəsilə verilir. Bunların içində həm qəhrəmani-çağırış marşa oxşar mahnılar, həm də lirik xalq mahnısı üslubunda və yaxud şən mahnı-rəqs melodiyaları öz yerini tapmışdı. Operanın ən gözəl səhnələrindən biri "Yoxsulların xoru"dur. Burada xalq düşmənlə sona qədər mübarizə aparmağa and içir. Musiqinin ciddi, asketik xarakterinə baxmayaraq, o böyük emosional qüvvəyə malikdir. Qəmgin, ehtiyatlı girişdən dramatik kulminasiyaya qədər xorun musiqisi tədricən artan qəzəb, ağrı və etiraz dolu qaynayan axına bənzəyir. Düşmən üzərində qələbəni əks etdirən operanın son xoru özündə xalqın birliyi ideyasını daşıyır. Bu xor öncəki xalq səhnələrinin obraz-emosional ümumiləşdiricisi kimi çıxış edir. Ruh yüksəkliyi,

qəhrəmani intonasiyalar, nəzərə çarpan harmonik üslub, dəqiq marşvari ritm, plakat cizgiləri – bunların hamısı xora təntənəli möhtəşəmlik xarakterini aşılayır.

M.Maqomayevin bu xorunu Azərbaycan musiqisində himn janrının ilk nümunələrindən biri kimi göstərmək olar. Onun sadə, lakin qabarıq mövzusu dərin milli köklərəmalikdir. Eyni zamanda bu xor folklorun və kütləvi mahnının sintezi kimi dəqqəti cəlb edir.

Beləliklə, gördüyümüz kimi, Ü.Hacıbəyli və M.Maqomayev, hərə özünəməxsus üslubda öz əsərlərində vətənpərvərlik ideyasını əks etdirməyə müvəffəq olmuşlar. Daha sonralar bütün Azərbaycan bəstəkarları onların yolunu davam etdirərək, bu ideyanı məhz iki səpkidə – qəhrəmani və lirik üslubda, bilavasitə və dolayısı şəkildə öz əsərlərində təcəssüm etmişlər. Bu iki böyük ustadın – Ü.Hacıbəyli və M.Maqomayevin əsərləri daima Azərbaycan xalqı tərəfindən seviləcək və dinlәniləcək.

Elmi yenilik və aktuallıq:

1. Tarixilik: yəni dahi bəstəkarlar Ü.Hacıbəylinin və M.Maqomayevin vokal-xor yaradıcılığına tarixi prizmadan baxış.

2. İlk olaraq iki bəstəkarın vokal-xor yaradıcılığının üslub və janr cəhətdən müqayisəli təhlili verilmişdir.

ƏDƏBİYYAT

1. Ü.Hacıbəyli. «Azərbaycanın musiqi sənəti haqqında», Bakı,1986
2. N.A.Mirzəyeva. «Xorşünaslıq», Bakı, 2007
3. Z. Qafarova. «Üzeir Hacıbəyovun "Koroğlu" operası», Bakı,1994
4. M.Maqomayev «Azərbaycan musiqi sənəti haqqında», Bakı, 1987

Məqalənin redaksiyaya daxil olma tarixi: 10.05.2019
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 17.05.2019
Məqalənin çapa qəbul olunma tarixi: 12.07.2019
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
pedaqogika üzrə elmlər doktoru, professor Oqtay Rəcəbov
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.